2015-ci ildə Dövlət Mülki Aviasiya Administrasiyasının fəaliyyəti barədə HESABAT

2007-ci ildən fəaliyyətə başlamış Dövlət Mülki Aviasiya Administrasiyasının (DMAA) vəzifələri və hüquqları Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2007-ci il tarixli 565 saylı Fərmanı ilə təsdiq edilmiş Əsasnamə ilə müəyyən edilib.

Fəaliyyət istiqamətlərinə uyğun olaraq DMAA 2015-ci il ərzində mülki aviasiya sahəsinin beynəlxalq təşkilatları, xarici dövlətlərin aviasiya orqanları, mülki aviasiya subyektləri və Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları və əsas etibarilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə sıx əməkdaşlıq edərək müəyyən iş aparıb:

- Vyetnam Sosialist Respublikası: Saziş 2015-ci ilin 14 may tarixində Bakı şəhərində imzalanıb;
- Səudiyyə Ərəbistanı Krallığı: Saziş 2015-ci ilin 08 iyul tarixində Ciddədə imzalanıb;
- Çin Xalq Respublikası: Saziş 2015-ci ilin 10 dekabr tarixində Pekində imzalanıb;
- Azərbaycan Respublikası, Türkiyə, Ukrayna, Gürcüstan və Moldovanın aviasiya administrasiyaları arasında ICAO çərçivəsində əməkdaşlığa dair Anlaşma Memorandumu. 13.07.2015-ci il tarixində Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfiri tərəfindən imzalanıb;
- Azərbaycan Respublikası ilə Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) arasında Universal Təhlükəsizliyə Nəzarət üzrə Audit Proqramının Davamlı Monitorinq Yanaşması ilə əlaqədar Anlaşma Memorandumu. 2015-ci ilin 31 avqust tarixində imzalanıb;
- 2015-ci ilin 21-22 aprel tarixlərində Bakı şəhərində Qazaxıstanın mülki aviasiya nümayəndə heyəti ilə danışıqlar keçirilib. Danışıqlar iki ölkə arasında ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 25.11.2014-cü il tarixli Protokoluna uyğun təşkil edilib. Görüşlərdə “Azərbaycan Hava Yolları” QSC və “Silk Way West Airlines” aviaşirkətinin nümayəndələri iştirak edib. Nümayəndə heyətlərinin rəhbərləri danışıqların nəticələri üzrə müvafiq Protokol imzalayıblar;
- 2015-ci ilin 28 aprel tarixində Bakı şəhərində Azərbaycan Respublikası və Rusiya Federasiyası aviasiya administrasiyalarının nümayəndə heyətləri arasında danışıqlar keçirilib. Danışıqlar iki ölkə arasında ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 15.09.2014-cü il tarixli Protokoluna uyğun təşkil edilib. Görüşdə “Azərbaycan Hava Yolları” QSC və “Silk Way West Airlines” aviaşirkətinin, eləcə də Rusiyanın təyin olunmuş aviaşirkətlərinin nümayəndələri iştirak edib. Nümayəndə heyətlərinin rəhbərləri danışıqların nəticələri üzrə müvafiq Protokol imzalayıblar;
- 2015-ci ilin 20 may tarixində Bakı şəhərində Azərbaycan Respublikası və Küveyt Dövlətinin aviasiya administrasiyalarının nümayəndə heyətləri arasında

danışıqlar keçirilib. Danışıqların gedişində Tərəflər Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında hava əlaqəsi haqqında Sazişin layihəsini razılaşdırıblar. Danışıqlarda "Azərbaycan Hava Yolları" QSC-nin, Küveyt Dövlətinin Azərbaycan Respublikasındakı Səfirliyinin nümayəndələri iştirak edib;

- 2015-ci ilin 13 iyul tarixində Bakı şəhərində Azərbaycan Respublikası və Çin Xalq Respublikasının aviasiya administrasiyalarının nümayəndə heyətləri arasında danışıqlar keçirilib. Nümayəndə heyətlərinin rəhbərləri danışıqların nəticələri üzrə müvafiq Protokol imzalayıblar;

- 2015-ci ilin 01-05 dekabr tarixlərində Bakı şəhərində Azərbaycan Respublikası və Bermuda Adaları aviasiya administrasiyalarının nümayəndə heyətləri arasında danışıqlar keçirilib. Danışıqlar Bermuda tərəfinin xahişi ilə təşkil olunub. Tərəflər icarəyə götürülmüş hava gəmilərinə nəzarətlə bağlı ICAO müddəalarının tətbiqi məsələlərini, həmçinin uçuş yararlığının saxlanılması üzrə məsuliyyətin məhdudlaşdırılmasına dair sazişin imzalanması perspektivlərini müzakirə ediblər;

- 22-23 oktyabr tarixlərində ICAO Şurasının Prezidenti Olumuiva Benard Aliu ICAO-nun Avropa və Şimali Atlantika üzrə Regional Bürosunun Direktoru Luis Fonseka de Almeydanın müşayiəti ilə Bakıya səfər edib. Səfərin gedişində qonaqlar Azərbaycan Respublikasının rəhbərliyi ilə görüşlər keçirib və Aviasiya və Hava məkanından İstifadə üzrə Dövlətlərarası Şuranın sessiyasında iştirak ediblər;

- Oktyabrın 23-də Aviasiya və Hava məkanından İstifadə üzrə Dövlətlərarası Şuranın 35-ci sessiyası keçirilib;

- Noyabrın 27-də "Eurocontrol" təşkilatının Baş direktoru Frank Brenner Bakıya səfər edib. Səfər zamanı qonaq Azərbaycan Respublikası mülki aviasiyasının rəhbərliyi, həmçinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində görüşlər keçirib;

- 07-11 dekabr tarixlərində Milli Aviasiya Akademiyasında Avropa Mülki Aviasiya Konfransı (ECAC) və "Eurocontrol"un təşkilatçılığı ilə tələb olunan naviqasiya xarakteristikalarına dair seminar keçirilib.

Uçuşların təhlükəsizliyinə nəzarət sahəsində Azərbaycan Respublikasında fəaliyyət göstərən aviaşirkətlərdə uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə təsdiqlənmiş illik audit planına uyğun olaraq uçuşqabağı və uçuş zamanı müvafiq yoxlamalar həyata keçirilib. Sözügedən yoxlamalar zamanı aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması üzrə müvafiq tədbirlər görülüb. Bununla yanaşı, Azərbaycan Respublikasına uçuşlar həyata keçirən xarici aviaşirkətlərin təyyarələrində uçuşların təhlükəsizliyi ilə bağlı yoxlamalar keçirilərək aşkar olunmuş nöqsanlarla bağlı istismarçılara tövsiyələr verilib. Azərbaycan Respublikasında fəaliyyət göstərən yerli istismarçıların istismar sertifikatlarının müddətinin uzadılması və yeni sertifikatların verilməsi, o cümlədən yeni tip hava gəmilərinin istismara buraxılmasında və istismarda olan hava gəmilərinin uçuşa yararlığına nəzarət sahəsində mühüm işlər görülüb.

Aviasiya personallarının hazırlığına nəzarət, onlara müvafiq şəhadətnamələrin verilməsi və etibarlılıq müddətinin uzadılması sahəsində işlər davam etdirilir.

Çari ilin 24 avqust - 3 sentyabr tarixlərində Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) "Uçuşların təhlükəsizliyinin davamlı audit-monitorinqi üzrə universal Proqram"ı (USOAP CMA) əsasında DMAA-da audit keçirilmişdir. Hesabatlarda bəzi nöqsanlar və tövsiyələr öz əksini tapmışdır.

DMAA-da iradların aradan qaldırılması və tövsiyələr əsasında təkmilləşdirmə istiqamətində iş davam etdirilir.

Mülki aviasiya sahəsini əhatə edən "Azərbaycanın Aviasiya Qaydaları"nın bölmələrin və Təlimatların beynəlxalq standartlara uyğunlaşdıraraq yenidən təsdiq edildikdən sonra aviaşirkətlərdə tətbiqi davam etdirilir.

Uçuşların təhlükəsizliyi üzrə müfəttişlər ixtisaslarının artırılması sahəsində 2015-ci il ərzində vəzifə öhdəlikləri üzrə ölkədaxili və xaricdə hazırlıq kurslarında iştirak emişlər. Aviasiya personalına şəhadətnamələrin verilməsi, etibarlılıq müddətinin uzadılması və Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya qoşulmuş digər dövlətlər tərəfindən verilmiş şəhadətnamələrin tanınması sahəsində mütəmadi işlər aparılır.

"Aviasiya təhlükəsizliyi üzrə Dövlət Proqramı"nın və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə tərəfimizdən aşağıdakı sənəd işlənib hazırlanmış və müvafiq qaydada təsdiq edilmişdir:

1) "Aviasiya təhlükəsizliyi sahəsində keyfiyyətə nəzarət üzrə Milli Proqram"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 16 iyun tarixli 231 nömrəli Qərarı (sözügedən Fərmanın 3.1.4-cü yarımbəndinin icrasına dair).

"Aviasiya təhlükəsizliyi sahəsində keyfiyyətə nəzarət üzrə Milli Proqram"ın və "Aviasiya təhlükəsizliyi sahəsində personalın hazırlığı üzrə Milli Proqram"ın icrası ilə bağlı "Aviasiya təhlükəsizliyi sahəsində tədris mərkəzlərinin sertifikatlaşdırılması Qaydası", "Aviasiya təhlükəsizliyi sahəsində keyfiyyətə nəzarətin metodikası" və "Aviasiya təhlükəsizliyi sahəsində keyfiyyətə nəzarətin həyata keçirilməsi Qaydası"nın layihələri işlənib hazırlanıb.

2015-ci ilin sentyabrın 01-04-dək ABŞ-ın Nəqliyyat Təhlükəsizliyi Administrasiyası (TSA) tərəfindən "AZAL" və "Silk Way West" Aviaşirkətlərində aviasiya təhlükəsizliyi üzrə keçirilmiş müfəttiş yoxlamalarında iştirak edilmişdir.

31 oktyabr 2015-ci ildə Rusiya Federasiyasının A-321 tipli hava gəmisinin partladılması, 12 noyabr 2015-ci ildə Beyrutda, 13 noyabr 2015-ci ildə Parisdə edilən terror aktları ilə bağlı təxirəsalınmaz işlərin görülməsi üzrə zəruri tədbirlər Planı hazırlanmış və icrasının təmini məqsədilə DMAA tərəfindən müvafiq aviasiya subyektlərinə göndərilmişdir.

Milli Aviasiya Akademiyasının nəzdində ICAO-nun Ukraynanın Kiyev şəhərindəki Aviasiya Təhlükəsizliyi üzrə regional tədris mərkəzi ilə birgə

“Aerodromda uçuşların təhlükəsizliyinin təmini” və “Aviasiya qəzalarının və insidentlərinin araşdırılması” üzrə kurslar təşkil edilmiş və keçirilmişdir.

Aviasiya təhlükəsizliyi istiqamətində aşağıda qeyd edilən tədbirlərdə iştirak edilmişdir:

- 13-17 aprel 2015-ci il tarixlərdə Kanadanın Monreal şəhərində İCAO-nun aviasiya təhlükəsizliyi üzrə ekspert Qrupunun 26-cı müşavirəsində;
- 14-16 oktyabr 2015-ci il tarixlərdə Belarusun Minsk şəhərində ICAO-nun Avropa və Şimali Atlantika bürosunun aviasiya təhlükəsizliyi üzrə 3-cü regional seminar/praktikumunda;
- 14-18 oktyabr 2015-ci il tarixlərdə Türkiyənin Kappadokiya şəhərində TSA-nın təşkil etdiyi “Aviation security management” seminarında.

DMAA-nın 2015-ci ilin Tədbirlər Planına uyğun olaraq, mülki aviasiya subyektlərində aviasiya təhlükəsizliyinin təmini üzrə 6 audit, 28 müfəttiş yoxlamaları keçirilmişdir.

DMAA-nın 2015-ci ilin Tədbirlər Planına uyğun olaraq, təhlükəli yüklərin qəbulu, emalı və daşınması ilə məşğul olan mülki aviasiya subyektlərində 8 müfəttiş yoxlamaları keçirilmişdir.

QEYD: Azərbaycan Respublikasının “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanunu və müvafiq olaraq, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanından irəli gələn tələblərin qeyd-şərtsiz icra edilməsi məqsədilə 2015-ci ilin noyabrın 1-dən etibarən mülki aviasiya sahəsində sahibkarlıq fəaliyyəti ilə bağlı yoxlamalar 2 (iki) il müddətinə dayandırılmışdır. Bu barədə DMAA-nın rəsmi saytında müvafiq məlumat yerləşdirilmişdir.

“Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 7.1-ci və 44.4-cü maddələrinə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli, müvafiq olaraq 3 və 4 nömrəli Qərarları ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının hava məkanından istifadə Qaydaları” və “Azərbaycan Respublikasının uçuş Qaydaları” aktlarına, habelə Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya (Çikaqo Konvensiyası), Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İKAO) 2011-ci il tarixli, 328 AN/190 nömrəli “Pilotsuz hava gəmilərinin idarə edilməsi sistemləri” sənədinə əsasən, DMAA-nın və “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssisləri tərəfindən “Pilotsuz mülki uçuş aparatlarının istifadəsi Qaydaları”nın layihəsi hazırlanmışdır. Hazırda bu layihə aidiyyəti dövlət qurumları ilə razılaşdırma mərhələsindədir.

Müəyyən edilmiş sertifikasiya tələblərinə davamlı uyğunluğun təmin edilməsi məqsədilə müfəttiş yoxlamaları keçirilmiş və müsbət nəticələrə əsasən 3 milli aviasiya şirkətinin (“Azərbaycan Hava Yolları” Sərnişin Aviasiya Şirkəti,

“Silk Vey Helikopter Services”, “Silk Vey Business Aviation”) İstismarçı Sertifikatlarının qüvvədə olma müddətləri uzadılmışdır.

Mülki hava gəmilərinin dövlət reyestrinə 5 yeni – G-550, G-650, A-319-115, A-340-642 və AN-12B tipli hava gəmiləri daxil edilib və Dövlət Qeydiyyatı haqqında Şəhadətnamələr verilib.

Özəl sahibkarlıq sahəsində hava daşımalarının satışı və bronlaşdırılması fəaliyyəti ilə məşğul olan müəssisələrin ərizələrinə əsasən baxışlar keçirilib, və nəticədə, 88 Uyğunluq Sertifikatı verilib (sertifikatların qüvvədə olma müddətinin uzadılması da daxil olmaqla).

Yekün olaraq, cari il ərzində toplam 278 müxtəlif sahələrdə icazəverici sənədlər verilib.